Qlobal iqlim siyasətində yeni uğurlar

milyard dollarlıq illik iqlim maliyyələşməsi tam olaraq həyata keçirilmədi.

Paris Sazişinin 6-cı maddəsi bu çətinliklərin arasında xüsusilə diqqət çəkir. Bu maddə karbon bazarlarının yaradılması və istifadə edilməsi ilə əlaqədardır və iqlim dəyişmələrinə qarşı mübarizənin maliyyələşdirilməsi üçün yeni mexanizmlərin tətbiqini nəzərdə tutur. Lakin 6-cı maddənin həyata keçirilməsi müxtəlif səbəblərdən hələ də mümkün olmayıb. Belə ki, karbon ticarətinin və bazarlarının qurulması üçün beynəlxalq səviyyədə vahid çərçivənin olmaması böyük çətinliklər yaradırdı. Ölkələrin iqlim siyasətləri, iqtisadi şərtləri və karbon bazarına dair yanaşmaları bir-birindən çox fərqlənir, bu da razılaşmanın tətbiqində ziddiyyətlərə səbəb olur.

Karbon bazarlarının düzgün işləməsi üçün güclü və effektiv nəzarət mexanizmləri tələb olunur. Lakin karbon ticarətinin düzgün həyata keçirilməsi üçün lazımi nəzarət və şəffaflıq mexanizmləri mövcud deyildi. 6-cı maddənin həyata keçirilməməsinin başqa bir səbəbi isə beynəlxalq səviyyədə "karbon bazarları" ilə əlaqədar hüquqi və maliyyə məsələlərinin həll edilməməsidir. Bu məsələlərin həlli üçün əlavə vaxt və əməkdaşlıq tələb olunur.

Artıq COP29-da ölkəmizin sayəsində Paris Sazişinin 6-cı maddəsi ilə bağlı əhəmiyyətli uğurlar əldə edilib. Konfransın ilk günündə Paris Sazişinin 6.4-cü maddəsi üzrə əməliyyat standartlarının qəbul edilməsi ilə bağlı tarixi bir qərar alınıb. Bu illərdir dayanan müzakirələrin ardından böyük bir irəliləyişdir və qlobal karbon bazarları üçün əsasların qoyulmasını təmin edir. 6.4-cü maddənin qəbul edilməsi, ölkələrə və şirkətlərə karbon kreditləri ticarəti aparmağa imkan verən mərkəzləşdirilmiş, BMT tərəfindən idarə olunan bir sistemin qurulması ilə bağlıdır. Bu mexanizm qlobal iqlim maliyyə boşluğunu azaltmaq üçün mühüm bir vasitə kimi qəbul edilir. Ölkəmiz də bu əməliyyat standartlarının müəyyənləşdirilməsi prosesində mühüm rol oynayır. Ümumilikdə isə Paris Sazişinin 6-cı maddəsi qlobal iqlim dəyişmələri ilə mübarizəni maliyyələşdirmək və ölkələr arasında əməkdaşlığı gücləndirmək üçün vacib mexanizmdir. COP29-da 6.4-cü maddənin razılaşdırılması istiqamətində əhəmiyyətli addım atıldı və 6-cı maddənin tamamilə razılaşdırılmasına ümidləri artırdı. Bu maddə karbon ticarətinin qlobal miqyasda təşkil olunmasını və hər ölkənin emissiya azaltma hədəflərinə çatmaq üçün beynəlxalq əməkdaşlığı təmin etməlidir. Həmçinin 6.4-cü maddənin razılaşdırılması əvvəlki illərdəki müzakirə və anlaşmazlıqlardan sonra qlobal iqlim bazarının işləməsi üçün konkret standartların müəyyənləşdirilməsinə imkan verir. Bu karbon kreditlərinin ticarətini və inkişaf etməkdə olan ölkələrə dəstək vermək üçün yeni maliyyə axınlarının yaranmasını təmin edəcək. Eyni zamanda bu addım 6-cı maddənin digər hissələrinin, xüsusilə 6.2-ci maddənin uğurla həyata keçirilməsi üçün zəmin yaradır.



COP29 Azərbaycanın beynəlxalq iqlim təşəbbüslərində daha da fəallaşdığı bir dövr oldu. Belə ki, COP29-da Dünya Bankı qlobal iqlim dəyişmələrinin təsirlərinə qarşı mübarizədə maliyyə dəstəyini 170 milyard dollara çatdıracağını bildirdi. Bu açıqlama inkişaf etməkdə olan ölkələr üçün mühüm əhəmiyyət daşıyır, çünki belə maliyyə töhfələri karbon emissiyalarını azaldacaq layihələrə investisiya qoyuluşunu sürətləndirəcək. Dünya Bankı bu addımı ilə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarını iqlim dəyişmələrinə uyğunlaşdırmağa kömək edəcək, eyni zamanda qlobal səviyyədə təmiz enerji və dayanıqlı infrastrukturun inkişafına dəstək verəcək. Bu maliyyə dəstəyi həmçinin ölkəmizin iqlim planlarını reallaşdırmağa kömək edəcək. Digər bank strukturları da bu prosesə qatılmaq üçün öz töhfələrini verəcəklər, bu da ümumilikdə qlobal iqlim dəyişmələri ilə mübarizənin gücləndirilməsi üçün mühüm amildir.

Azərbaycanın COP29-da əldə etdiyi uğurlar yalnız ölkənin beynəlxalq platformada iqlim siyasətinə verdiyi töhfələrlə məhdudlaşmır. Bu uğurlar, həm də qlobal miqyasda həyata keçirilən maliyyə təşəbbüslərinin həyata keçirilməsi üçün əlavə zəmin yaradır. Dünyanın aparıcı maliyyə qurumlarının iqlim dəyişmələri ilə mübarizəyə dəstək verməsi qlobal istiləşmənin qarşısını almağa yönələn siyasətlərin effektivliyini artıracaq. Bu ölkəmizin regional liderlik rolunu daha da möhkəmləndirəcək və iqlim siyasətindəki yanaşmalarını davam etdirəcək.

COP29 ölkəmizin beynəlxalq mövqeyini bir daha vurğulayan önəmli hadisədir. Tədbirdə 196 ölkədən 72 mindən çox iştirakçı qeydiyyatdan keçdi, 80-dən çox dövlət başçısı və hökumət lideri də yer aldı. Bununla yanaşı, BMT-nin Baş katibi Antonio Quterreş də tədbirdə iştirak etdi. Prezident İlham Əliyev çıxışında, bu cür mühüm tədbiri Bakıda təşkil etməyin ölkəmizin qlobal səhnədəki yerini necə möhkəmləndirdiyini və dünyadakı iqlim dəyişmələrinə qarşı mübarizədə Azərbaycanı mühüm bir tərəfdaş olaraq tanıtdığını vurğuladı. Bu cür tədbirlər, Azərbaycanın uzunmüddətli iqlim siyasətinin uğurlu olmasına və ölkənin qlobal iqlim hədəflərinə daha da yaxınlaşmasına şərait yaradır.

Tədbirdə yüksək səviyyəli liderlərin iştirakı, Azərbaycanı yalnız enerji təminatında vacib bir tərəfdaş deyil, eyni zamanda iqlim dəyişmələri ilə mübarizədə də fəal lider kimi tanıtdı.

Ləman TƏHMƏZ,
"Respublika".

Respublika .- 2024.- 17 noyabr (№ 253).- S.12.